**UOT 7.01/09:[904+7.031]**

**Dilarə Ərəstun qızı Müzəffərli**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Doktorant**
**E-mail: art_dilara@yahoo.com**

# QƏDİM İNCƏSƏNƏTİMİZDƏ QROTESKLİ, MİFİK OBRAZLAR

**Xülasə:** Məqalə qədim Azərbaycan incəsənətindəki erkən qrotesk obrazlara həsr olunub. İbtidai, daha sonra qədim dinlər incəsənətdən vizual dini obrazlar yaratmaq üçün istifadə edirdilər. Antropomorf və zoomorfik heykəlciklər mübaliğə, qrotesk, montaj üsulundan istifadə edərək qədim dini-ideoloji təsəvvürlərin irreal simvollarına çevrilmişdir. Qədim sənətkarlar qroteskdən insana dini təsiri artırmaq üçün istifadə edirdilər.

**Açar sözlər:** Qrotesk, bədii təhrif, bədii şişirtmə, qədim incəsənət. Manna incəsənəti, Midiya incəsənəti, Alban incəsənəti

Qədim dövr Azərbaycan incəsənətinin dini-ideoloji obrazları əsasən kiçik heykəlciklər şəklində daş, gil və tuncdan hazırlanaraq, müxtəlif dini mərasimlərdə istifadə olunmuşlar. Həmin insan və heyvan obrazları dini səciyyə daşıdıqlarından, onların vizual forması qeyri-adi biçimdə işlənərək, reallıqdan çıxarılmalı idilər. Arxeoloji qazıntılar nəticəsində tapılmış əksər qədim dövr dini-mərasim xarakterli heykəlciklər məhz belə səciyyələnirlər.

Məlum olduğu kimi, insan və ya heyvan fiqurunu real görüntüdən, adilikdən çıxarmağın ən geniş yayılmış üsulu – onu qroteskləşdirməkdir. Heykəlciklərdə məqsədyönlü bədii deformasiyalar, montaj vasitəsilə müxtəlif mənşəli fiqur hissələrinin bir obrazda birləşdirilməsi və s. bədii üsullar vasitəsi obrazın irreal görüntü və mahiyyət əldə etməsinə kömək edirdi. Qroteskləşdirilmiş həmin obrazların məna və məzmun tutumu da məqsədyönlü bədii montaj, təhrif və şişirtmələrdən asılı olaraq dəyişirdi və ya əlavə məna diskursları əldə edirdi.

Deyilənlərə misal olaraq, belə qrotesk xarakterli obrazlardan biri Həsənlidən tapılmışdır. Manna mədəniyyətini əks etdirən qədim dövrə aid bu fiqurun da həlli reallıqla – irreallığın sintezini özündə əks etdirir. Belə ki, fiqurun ilahi personaj olmasını bildirmək üçün qədim heykəltəraş quş fiqurunu (qartal) şir fiquru ilə sintez etmişdir.

Müəllif şir və qartal obrazlarını bu heykəldə birləşdirməklə, yəni iki real varlıqdan bir irreal obraz yaratmaqla ikiliyi, göylə yerin simvolik birliyini əlaqələndirməyə çalışmışdır və buna ustalıqla nail olmuşdur. Eyni zamanda müəllif hər ikisi güclü və yırtıcı olan canlıları bir heykəldə birləşdirməklə illahi

obrazın güc-qüdrət simvolu olmasını təsbit etmişdir. Beləliklə də sənətkar qrotesk üsulundan istifadə edərək fərqli obrazları montaj yolu ilə birləşdirməklə ümumi obrazın simvolizmini genişləndirmiş və gücləndirmişdir.

Arxeoloji qazıntılar nəticəsində dünya mədəniyyətində qrifon kimi tanınan belə fiqurların müxtəlif variantları tapılmışdır. Həsənlidən tapılmış şir bədənli və qartal başlı biri-birindən kiçik elementləri, bəzəkləri ilə fərqlənən bir neçə fiqur – qoruyucu qrifon isə bu ərazidə qrotesk obrazlı təsvirlərin mühüm əhəmiyyətə malik olmasından irəli gələ bilərdi. Ziviyyədən tapılmış qızıldan hazırlanmış qartal başlı və şir bədənli qrotesk obrazlı belə fiqurların üzün zaman ərzində təsviri obrazlılığını saxlamasını, bu arealda geniş yayılmasını bir daha sübut edir.

Qədim dövrün qroteskli obrazlarından biri kimi Qalayçıdan (Cənubi Azərbaycan) tapılmış şirəli kərpic üzərindəki quş-insan təsvirini göstərmək olar. Təsvirin müəllifi obrazın adi insan və ya quş deyil, ilahi personaj olmasını bildirmək üçün fiqurda quş başını insan başı ilə əvəz etmişdir. İki real varlığın birləşməsindən ibarət olan bu təsvirin qeyri-adi həlli onun ilahi (mifik, əfsanəvi) personaj olmasına işarədir.

Qədim Midiya dövrünə aid arxeoloji tapıntılar arasında e.ə. VII əsrə aid olan qızıl sinəbənd də həm dizayn orijinallığı, həm də üzərindəki qroteskli təsvirləri ilə diqqəti cəlb edir. Ziviyyədən tapılmış bu sinəbənd üzərində sıra ilə yerləşdirilmiş qrotesk xarakterli iki mifik təsvir var. Sırada öndə birinci – şir bədənli, qartal qanadlı, insan başlı obraz, arxada isə qanadlı şir təsvir olunmuşlar.

Qədim dövrə aid arxeoloji tapıntılar arasında tuncdan qəlibləmə üsulu ilə hazırlanmış qroteskli fiqurlu qablar sırasında Midiya dövrünə aid inək başlı və qadın bədənli gümüş camı göstərmək olar. Metropoliten Muzeyində saxlanılan bu qab qurban vermə mərasimlərində istifadə olunan antropo-zoomorf camdır. Bolluq məhsuldarlıq ideyasını qabartmaq məqsədilə camın müəllifi inək və qadın obrazını yüksək bədii ustalıqla birləşdirə bilmişdir. Ehtimal olunur ki, həmin bu cama zərdüştilərin qurbanvermə mərasimi zamanı istifadə etdikləri müqəddəs xaoma içkisi doldurulurdu və camın kiçik lüləyi vasitəsilə xaoma içkisi dualar sədası altında qurbangaha tökülürdü.

Qədim dövrün arxeoloji tapıntıları arasında keramikadan hazırlanmış grotesk xüsusiyyətli qadın fiqurları da bədii həllinə görə diqqəti cəlb edir. Mərlikdən tapılmış bu qadın fiquru eramızdan əvvəl I minilliyə aiddir. Yuxarı hissədə çox incə, qurşaqdan aşağı hissəsi isə çox şişman olan fiqur özünün mütənasibliyinə görə kəskin qrotesk xüsusiyyətləri ilə səciyyələnir. Heykəlin müəllifi məqsədyönlü olaraq qadının qurşaqdan aşağı hissəsini belə şişman yaratmaqda məhsuldarlıq, bolluq, artım ideyasını daha qabarıq ifadə edə bilmişdi.

Bədii qrotesk xüsusiyyətləri Mərlikdən tapılmış digər qadın fiqurunda daha çox diqqəti cəlb edir. Eramızdan əvvəl I minilliyə aid olan və Britaniya Muzeyində saxlanılan bu qadın fiquru "Ana ilahə" simvolunu ifadə edir.

Qədim dövrün "Ana ilahə" obrazları həm kiçik heykəl fiqurlarında, həm də təsvirlərində ancaq inanc, sitayiş, məqsədyönlu ideya əsasında yarandığı üçün qrotesk xüsusiyyətləri onların əsas bədii xüsusiyyətləri olmuşdur. Qədim dövr insanlarının təsəvvürlərində qadının müəyyən hissələrinin şişirdilməsi, böyüməsi doğumun, çoxalmanın, artımın, bolluğun, məhsuldarlığın rəmzi idi. Bu səbəbdən də belə obrazları hazırlayan, təsvirləri yaradan müəlliflər dövrün tələblərinə, inanclarına, təsəvvürlərinə cavab verməyə nail ola bilmişlər.

Arxeoloji tapıntılar arasında Midiya dövrünə aid ayaqlarına çarıq geyinmiş insan bədənli və qeyri-real formalı başı olan mifik obrazlı qaba da rast gəlirik. Keramikadan hazırlanmış qab özünün qeyri-adi bədii həlli ilə seçilir. Şişman bədənli və kiçik başlı, ayaq üstə dayanmış qadın obrazını xarakterizə edən qabın üzərindəki xətlər, üçbucaqlı naxışlar, aşağı hissəsindəki saçağa bənzər şaquli xətlər isə eyni zamanda, onun geyimini ifadə edir. Antropomorf formalı qabın şişman gövdəsinin aşağı hissəsində sağ və sol tərəfə maili iki ədəd lülək var. Qısa və şişman əllərində tutduğu kiçik camı başı bərabərində yuxarıya qaldıran qadın obrazı qabın xüsusi olaraq dini mərasimlərdə istifadəsi üçün hazırlanmışdı.

Arxeoloji tədqiqatlar zamanı Ziviyyədən tapılmış bir çox sənət nümunələri arasında olan pilək üzərində verilmiş təsvir də orijinallığı ilə diqqəti cəlb edir. Bu pilək b. e.ə. VII əsrdə qızıldan hazırlanmışdır. Piləyin üst hissəsində dairə içərisində iki şir fiquru yerləşdirilmişdir. Müəllif bir başla birləşdirilmiş şirləri yan görünüşlü və hərəkətedici vəziyyətdə təsvir etmişdir. İki şirin dairə içərisində, bir başlı təsviri mifik obrazın qrotesk xüsusiyyətindən irəli gəlir. Müəllifin iki real varlıqdan yaratdığı irreal, mücərrəd obraz, eyni zamanda ikiliyi – dualizmi ifadə edir.

Qrotesk xarakterli obrazlar sırasında Alban dövrünü əks etdirən coxsaylı maddi-mədəniyyət nümunələri də aşkarlanmışdır. Bu dövrə aid qrotesk xüsusiyyətli, mücərrəd ornamentlərlə bəzədilmiş zoomorf və antropomorf qabların bir hissəsi Azərbaycan Milli Tarix Muzeyinin fondunda saxlanılır. Burada mühafizə olunan qablar arasında Mingəçevir arxeoloji qazıntıları zamanı aşkarlanmış zoomorf formalı qab daha çox diqqəti cəlb edir. Qabın gövdəsinin yuxarı hissəsindəki lülək quşun boyun və başı formasındadır. Qabın gövdəsi üzərindəki xətlər quşun qanadlarının, digər tərəfindəki çıxıntı isə quşun quyruğunun təsviridir. Zoomorf formalı bu qab dini təsəvvürlərdən, əsatirlərdən bəhrələnərək ördək obrazı əsasında yaradılmışdır. Belə ki, qədim türklərin inanclarına görə ördək həyat üçün əsas mənbə və dörd ünsürdən biri olan Suyun təmsilçisidir.

Hazırda Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan və Mollaisaqlı dəfinəsindən (İsmayıllı) tapılmış tunc maral fiquru da qədim dövrün qroteskli sənət nümunələrindən biridir. Alban dövrü mədəniyyətini əks etdirən bu fiqurun bədən hissəsindən şaquli metal asılqan keçirilmişdir. Hər iki dəlik olan və yuxarı hissəsində halqalar yerləşdirilən asılqan da onun xüsusi asma bəzək əşyası olmasından irəli gəlir. Günəş rəmzi sayılan maralın fiqurunda boyun hissəsinin xüsusi halqavarı formalarla uzadılması və bu halqavarı formaların ön aşağı hissəsinin buynuz formasında tamamlanması, şübhəsiz ki, fiqurun dini xarakterli olmasını əks edir.

Bildiyimiz kimi, maral təsvirləri qədim türk tayfalarının totem obrazlarından biridir. Günəşin rəmzi və eyni zamanda böyük güc, yüksəliş rəmzi nişanəsi sayılan maralın buynuzları ağacaoxşar olması ilə cavanlaşdırmanın, daimi yenilənmənin simvolu hesab olunurdu. Müqəddəsliyi əks etdirən və müxtəlif vasitələrlə daha da gücləndirilmiş belə maral fiqurlarını yanlarında gəzdirən qədim türklər hesab edirdilər ki, onlar bütün bu xüsusiyyətləri özlərində cəmləşdiriblər.

Alban dövrünə aid tapıntılar arasında müxtəlif inanclarla əlaqədar olaraq, xüsusi hazırlanmış kiçik heykəllərə də tez-tez rast gəlmək olar. Alban mədəniyyətinin incəliklərini, təsəvvürlərini, inanclarını bu günümüzə qədər çatdıran belə heykəlciklərdən – terrakota heykəlindən biri Şəki Tarix Diyarşünaslıq Müzeyində saxlanılır. Burada mühafizə olunan gildən hazırlanmış, kiçik ölçülü, e.ə. I əsrə aid quş başlı “Ana ilahə” fiquru bədii-həlli ilə qrotesk xüsusiyyətlərinə malikdir. Quşun və insanın stilizasiyası, birləşdirilməsi nəticəsində yaranan Ana İlahə obrazı Alban dövrü təsəvvürlərini özündə əks etdirir. Belə ki, məhsuldarlığın, bolluğun rəmzi olan Ana ilahənin başının quş formasında təsvir olunması qoruyucu humay ilahəni ifadə edir. Müəllif qrotesk elementlərdən istifadə etdiyi bu heykəldə – iki ilahəni birləşdirməklə onların tamaşaçıya təsir gücünü artırmağa çalışmışdır. Ümumlikdə quş başlı Ana ilahə obrazı olduğu yerdə həm bolluq olar, həm də həmin məkanı xeyirxah ruhlar, göy tanrıları qoruyarmış.

Arxeoloji qazıntılar arasında Şəkidən tapılmış e.ə. I minilliyə aid olan başqa “Ana ilahə” obrazı nisbətən real insan bədəninə uyğun ölçüləri ilə fərqlənir. Hazırda Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılan Alban dövrünə aid bu heykəlcik insan bədəni ilə quşun başının birləşdirilməsi yolu ilə hazırlanmışdır.

Qədim dövrün qrotesk xüsusiyyətli heykəlcikləri arasında Mingəçevir arxeoloji tədqiqatlarından aşkarlanmış qadın heykəlciyi orijinallığı ilə seçilir. Alban dövrü mədəniyyətini əks etdirən bu heykəlcik gildən hazırlanaraq, e.ə. III-I əsrlərə aiddir. Qadın fiqurunun boynuna taxılmış çoxlu halqalardan sinəsi üstündə yerləşən ikisinin üzərindəki dairəciklər və sonuncu halqadan, döşlərinin

arasından aşağı sallanan "U" hərfinə bənzər forma onu yapma bəzək əşyasına bənzədir. Çox ehtimal ki, bu heykəlciyin sinəsində qrotesk elementləri ilə diqqəti cəld edən sinəbənd, məhsuldarlıq, artım və eyni zamanda, qoruyucu xarakterə malik olmuşdur.

Arxeoloji tapıntılar arasından Lerik Tari-Diyarşünaslıq Muzeyində saxlanılan qab da qrotesk xüsusiyyətlərə malikdir. Muzeydə Avesta dövrü adı altında nümayiş etdirilən qab e.ə. I minilliyin birinci yarısına aiddir. Saxsıdan hazırlanmış bikonik qabın qrotesk xüsusiyyəti onun lüləklərinin qoç başı ilə tamamlanmasından irəli gəlir. Belə ki, qabın gövdəsinin aşağı hissəsində yerləşən sağ və sol tərəfə maili olan iki lülək qoçun boyun və başı formasında hazırlanmışdır.

Bildiyimiz kimi, qədim Azərbaycan ərazisində qoç, keçi və s. bu kimi buynuzlu heyvanlar müqəddəs sayılırdı və həmin dövrlərdə bu heyvanların təsviri əkinçilik, heyvandarlıq kimi müxtəlif təsəvvürlərlə əlaqədar olaraq meydana gəlmişdir. Bu qrotesk xarakterli qabda da qoç təsvirinin verilməsi və onun lüləkləri qabın məişət əşyası deyil, məhz dini ayin və mərasimlər üçün hazırlanmasını təsdiqləyir.

Gəncə-Çovdar arxeoloji qazıntıları zamanı aşkarlanmış Alban dövrü sənət nümunələri arasında qəlibləmə üsulu ilə tuncdan hazırlanmış heykəlciyin qrotesk xüsusiyyəti onun insan bədənli və qara çaqqal başlı olmasından irəli gəlir. Tuncdan qəlibləmə üsulu ilə hazırlanmış heykəlcik Azərbaycan Milli Tarix Muzeyinin fondunda saxlanılır.

Ümumiyyətlə, araşdırma nəticəsində müəyyən olunur ki, qədim dövrdə mövcud olan qrotesk elementləri dini təsəvvürlərdən bəhrələnərək yaradılmış və bolluq, məhsuldarlıq, artım, qoruyucu və s. mənaları ifadə edir.

Beləliklə, hələ ibtidai dövrdən təsviri sənət nümunələrində qrotesk elementlərinin təsvirinə rast gəlinir. Bu dövrdən etibarən obrazın gücləndirilməsi məqsədilə yaradılan təsvirlərdə əcaibləşdirmədən, mücərrədləşdirmədən istifadə olunmuşdur.

Nəticə etibarilə qeyd etmək olar ki, müasir dövrdə ədəbiyyatda, teatrda, təsviri sənətdə və s. geniş yayılan qrotesk ifadə vasitələri hələ qədim dövrün sənətkarlığında özünü büruzə vermişdir. Belə ki, araşdırmalar zamanı bir daha aydın olur ki, qədim dövr mədəniyyətində, təsviri sənətində mövcud olan stilizasiyalar, şişirtmələr, gücləndirilmiş və qabarıq təsvirlər, əcaib və fantastik obrazlar qrotesk elementlərini xarakterizə edir.

## Ədəbiyyat siyahısı:

1. Solmaz Qaşqay. Manna dövləti. Azərbaycan Dövlət nəşriyyatı. Bakı 1993
2. Rəşid Göyüşov. Azərbaycan arxeologiyası. "İşıq", Bakı 1986
3. Рзаев Н.И. Искусство Кавказской Албании. IVв.до н.э. – VII в.н.э. «Элм», Баку 1976
4. Azərbaycanın maddi mədəniyyəti.VI cild. Bakı 1965
5. Azərbaycanın maddi mədəniyyəti.VIII cild. Bakı 1976
6. Azərbaycanın maddi mədəniyyəti.V cild. Bakı 1964
7. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. «Элм», 1991

**Дилара Арастун кызы Музаффарли**

## ГРОТЕСКНЫЕ, МИФИЧЕСКИЕ ОБРАЗЫ В АНТИЧНОМ ИСКУССТВЕ АЗЕРБАЙДЖАНА

**Резюме:** Статья посвящена ранним гротескным образам в искусстве древнего Азербайджана. Первобытная, а затем и – древние религии использовали искусство для создания визуальных религиозных образов. Антропоморфные и зооморфные фигурки методом монтажа. утрирования и гротеска – превращались в ирреальные символы древних религиозно-идеологических представлений. Гротеск использовался древними мастерами для усиления религиозного воздействия на человека.

**Ключевые слова:** гротеск, художественное искажение, художественное утрирование, древнее искусство, искусство Манны, искусство Мидии, искусство Албании

**Dilara Arastun qizi Muzaffarli**

## GROTESQUE AND MYTHICAL IMAGES IN OUR ANCIENT ART

**Summary:** The article is devoted to early grotesque images in the art of ancient Azerbaijan. Primitive, and then - ancient religions used art to create visual religious images. Anthropomorphic and zoomorphic figures were turned into unreal symbols of ancient religious and ideological ideas by mounting method, exaggerations and grotesques. The grotesque was used by ancient masters to enhance the religious impact on a person.

**Key words**: Grotesque, artistic distortion, artistic exaggeration, ancient art, Manna Art, Median Art, Albanian Art

**Məqalənin redaksiyaya daxil olma tarixi: 25.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**